# "Qıymayın uşaqlara" kitabının təqdimatı



İyunun 8-də Səbail rayon Milli Qəhrəman Riad Əhmədov adına 203 nömrəli tam orta məktəbdə Azərbaycan Yazıçılar Birliyinin üzvü, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı İbrahim Yusifoğlunun uşaqlar üçün yazdığı "Qıymayın uşaqlara" adlı kitabının təqdimetmə mərasimi keçirilmişdir.Tədbiri giriş sözü ilə məktəbin müvəqqəti direktor vəzifəsini icra edən Əzizə Kərimova açmışdır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, həmin institutun "Uşaq ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru Elnarə Akimova, "Mətbuat tarixi və publisistika" şöbəsinin müdiri, professor Vüqar Əhməd, f.e.d.,professor Akif İmanlı, f.e.d. Salidə Şərifova, f.ü.f.d., dosent Zəkulla Bayram, f.ü.f.d., dosent Fidan Nizaməddin qızı və başqaları çıxış edərək kitabdakı şeirlərin mahiyyəti haqqında danışmışlar. Məktəbin müəllimləri Kəmalə Nəbiyeva və Əzizə Məmmədovanın rəhbərliyi ilə məktəblilərin ifasında "Qıymayın uşaqlara" kitabındakı şeirlər səsləndirilmiş, kitabdakı "Pəhləvanın bağında" adlı mənzum pyesdən səhnəciklər göstərilmişdir. Tədbirin sonunda məktəbin müəllim və şagird kollektivinə "Qıymayın uşaqlara" kitabı hədiyyə edilmişdir.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 11 iyun.- S. 32.**